**Pol Stretern**

# HEGELLƏ
# 90 DƏQİQƏ

Tərcüməçi:
Ofeliya Rəhimqızı

QANUN NƏŞRİYYATI

Paul Strathern

# HEGEL
# IN 90 MINUTES

Bu kitab alman filosofu Georq Vilhelm Fridrix Hegelin fəlsəfi irsini 90 dəqiqəyə sığacaq şəkildə sadə və anlaşılan dildə təqdim edir. Hegelin dialektik metodu, ideya və tarixin inkişafı, həmçinin onun fəlsəfəsinin əsas prinsipləri və təsiri qısa, yığcam və aydın şəkildə izah olunur. Kitab həm fəlsəfə ilə yeni tanış olanlar, həm də Hegelin düşüncələrini tez və effektiv şəkildə mənimsəmək istəyən oxucular üçün nəzərdə tutulub.

# MÜNDƏRİCAT


Giriş............................................................................7

Hegelin həyat və yaradıcılığı .......................................9

Epiloq ..........................................................................54

Hegelin əsərlərindən ....................................................58

Hegelin həyat xronologiyası ........................................67

Hegel dövrünün xronologiyası.....................................69

Tövsiyə olunan kitablar..............................................71

## Giriş

Hegelin doğulduğu 1770-ci il bir neçə səbəbdən əlamətdar idi. Həmin il Köniqsberq Universitetində Kant "Hiss və zəka ilə qavranılan aləmin forması və prinsipləri haqqında" adlı dissertasiyasını müdafiə etmişdir. Elə həmin il şairlər Hölderlin və Vordsfort da anadan olmuşlar.

Lirik coşqu və quru sistemləşdirmə, ifrat obyektivlik və maksimum subyektivlik dövrü başlayırdı. Avropa İntibah dövründən bəri görmədiyi çox böyük dəyişikliklərin astanasında idi. Bu dəyişikliklərin ifadəsi siyasətdə Fransız inqilabı, incəsənətdə isə romantizm hərəkatı oldu.

Bu arada sənaye inqilabı qitənin simasını dəyişirdi. Hegelin ölümündən cəmi bir neçə il sonra isə Marks artıq XX əsrdə bütün dünyanı dəyişdirəcək yeni bir inqilab üçün zəmin hazırlayırdı.

Hegel bu dəyişikliklərdən kənarda qalmadı. Tələbəlik illərində o, Fransız inqilabına heyranlıq duyurdu, sonradan isə (özünün məşhur dialektik metoduna tam uyğun üslubda) fikirlərini kəskin şəkildə dəyişərək qatı mühafizəkar Prussiya dövlətini tərifləməyə başladı.

Hegelin dialektik metodu fəlsəfi düşüncə tarixində çox mürəkkəb və möhtəşəm, tərənnüm etməli olduğu dövlət kimi monolit sistem yaratdı. Karl Marks isə Hegelin ideyalarını mənimsəyərək, bəşəriyyət tarixində ən nəhəng və ən güclü siyasi sistemi yaradan təlimi işləyib hazırladı (maraqlıdır ki, bu sistem bir çox xüsusiyyətlərinə görə Prussiya dövlətini heyrətamiz dərəcədə xatırladırdı).

Dialektik metod praktikada belə işləyirdi, amma əgər bunu Hegel özü bilsəydi, çox güman ki, təəccüblənərdi.

## Hegelin həyat və yaradıcılığı

"İndiyədək yalnız ruhi xəstəxanada eşidilə bilən mənasız, məntiqsiz, çılpaq söz birləşmələri yığınından ibarət sırf cəfəngiyyatı təqdim etməkdə ən böyük həyasızlıq, nəhayət, Hegeldə öz ifadəsini tapdı və indiyə qədər məlum olan ən kobud mistifikasiyanın alətinə çevrildi, gələcək nəsilləri heyrətləndirəcək, əsrlər boyu alman ağılsızlığının unudulmaz sübutu kimi xatırlanacaq bir uğur qazandı".

Bunu Hegelin Berlin Universitetindəki həmkarı Şopenhauer yazırdı. Biz bu sözləri oxucularda Hegel fəlsəfəsinə qarşı qabaqcadan qərəzli fikir yaratmaq üçün deyil, onları xəbərdar etmək məqsədilə deyirik. Hegel üçün fəlsəfə son dərəcə ciddi bir məşğuliyyətdir, ona görə də dərhal razılaşaq: heç bir zarafat olmayacaq. Bat şəhərində çıxışı zamanı onun cəhənnəm odu barədə söhbətlərinin seçilmiş dinləyici auditoriyasını yalnız əyləndirdiyini görən qatı

inanclı bir ingilis moizəçinin dediyi kimi: “Gülənlər üçün heç bir ümid yoxdur”.

Hegel son dərəcə mürəkkəb bir fəlsəfi sistem yaratmışdı və onu anlamaq üçün yüksək səviyyədə diqqət tələb olunurdu. Görünür, kəskin zəkası ilə tanınan Şopenhauer bu sistemi dərindən öyrənmək üçün özünü əziyyətə salmaq istəməmişdi.

Georq Vilhelm Fridrix Hegel avqustun 27-də Ştutqart şəhərində anadan olmuşdur. Gələcək filosofun ailəsində bir neçə məmur nəsli olub, atası isə Vürttemberq xəzinədarlığında çalışıb.

Gələcəkdə Hegelin yetişdiyi mühiti xatırladan əsas cəhətlərdən biri onun ömrünün sonunadək qoruyub saxladığı güclü Şvab ləhcəsi olacaq. Eləcə də onun təvazökarlığın əsl mədəniyyətin əsas əlamətlərindən biri olduğuna qəti inamı böyüdüyü mühitdən irəli gəlirdi.

Hegelin səhhəti zəif idi, uşaqlıq və gənclik illərində bir neçə ağır xəstəlik keçirmişdi. 6 yaşında o, çiçək xəstəliyindən az qala həyatını itirəcəkdi. Bir həftə gözləri görmədi və sonralar üzündə çiçək çapıqları qalmışdı. 11 yaşında olanda bütün ailəlikcə qızdırma xəstəliyinə tutuldular və həmin xəstəlikdən anası dünyasını dəyişdi. Tələbəlik illərində isə mal-